**Elektron xidmətlərlə bağlı daha bir yenilik**

Dövlət büdcəsinin icrasına dair hesabatlar elektron qaydada təqdim olunacaq

Elektron xidmətlərin tətbiqi hər bir ölkənin informasiya cəmiyyətinin mühüm komponenti kimi çıxış etməklə yanaşı, intellektual və elmi potensialın, dövlət idarəçiliyində şəffaflığın və demokratiyanın inkişafının əsas göstəricilərindən biri hesab olunur. Xüsusilə də e-xidmətlərin göstərilməsi dövlət-biznes strukturları arasında təmasların aradan qaldırılmasında və şəffaflığın təmin edilməsində mühüm rol oynayır.

Ölkəmizdə mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlərin göstərilməsi ilə bağlı tədbirlərin miqyasının genişlənməsi təqdirəlayiq hadisə kimi qiymətləndirilməlidir. Hazırda dövlət strukturlarında elektron xidmətlərin yeni, qabaqcıl texnologiyalara əsaslanan növləri tətbiq olunmaqdadır.

Dövlət büdcəsinin icrasına nəzarət hökumətin şəffaflığın təmin olunması ilə əlaqədər həyata keçirdiyi iqtisadi siyasətin əsas strateji istiqamətlərindən birini təşkil edir. Büdcə vəsaitlərinə nəzarətin müasir Avropa standartlarına uyğunlaşdırılması sahəsində sistemli və kompleks tədbirlərin həyata keçirilməsi, bu sahədə elektron xidmətlərin tətbiqi başlıca vəzifələrdən sayılır. Maliyyə Nazirliyi büdcə vəsaitlərinin icrasına dair hesabatların elektron qaydada aparılması istiqamətində həyata keçirdiyi işləri yekunlaşdırıb və nazirlik tərəfindən e-xidmətlərin göstərilməsi üçün müvafiq infrastruktur təmin olunub.

Maliyyə Nazirliyindən verilən xəbərə görə, Dövlət Xəzinədarlığı Agentliyi tərəfindən dövlət büdcəsinin icrasına dair hesabatların təqdim olunması və baxılması bundan sonra elektron qaydada aparılacaq. Hesabatların Maliyyə Nazirliyinin rəsmi internet saytı vasitəsilə qəbul olunması məqsədilə tətbiq edilən proqram təminatında təşkilatlara elektron sənəd mübadiləsi üçün istifadəçi kodunun, birdəfəlik giriş üçün şifrənin verilməsi, hesabat formalarının yüklənməsi, doldurulması və göndərilməsi, göndərilmiş hesabatların baxılması və qəbulu mərhələlərinin izlənilməsi, hesabatların qəbulu ilə bağlı yaranan suallar üzrə yazışmaların aparılması, elektron sənədlərin beynəlxalq standartlara uyğun təhlükəsizlik sertifikatı ilə şifrələnməsi nəzərdə tutulub. Dövlət təşkilatları hesabat göstəricilərini Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyinə göndərəcəklər.

Maliyyə Nazirliyi dövlət büdcəçinin icrası ilə bağlı hesabatların elektron qaydada aparılmasını şəffaflığın və güclü maliyyə tənzimləməsinin nəticəsi kimi qiymətləndirir. Nazirlikdən verilən məlumata görə, son illər maliyyə nəzarəti sistemində əhəmiyyətli dərəcədə islahatlar aparılıb və bu addımlar nəzarət sisteminin daha da təkmilləşməsinə və güclənməsinə səbəb olub. Maliyyə sektorunda idarəetmənin səmərəliliyinin artırılması və maliyyə vəsaitlərinə nəzarət sisteminin beynəlxalq tələblərə çatdırılması, ən güclü maliyyə nəzarəti institutlarının formalaşdırılması məqsədilə həyata keçirilən tədbirlərin əhəmiyyəti olduqca böyükdür. Azərbaycanın xəzinədarlıq sektoru tam təkmilləşib və müasir tələblərə cavab verən güclü fəaliyyət mexanizmi mövcuddur. Son illər ölkəmizdə xəzinədarlıq sistemi sahəsində də yeniliklərin nəzərə çarpması və qabaqcıl dünya təcrübəsinin tətbiqi bu sahədə yeni keyfiyyət göstəricilərinin yaranmasına imkan verib. Büdcə vəsaitlərinin artım tempi maliyyənin xərclər istiqamətlərinin genişləndiyi bir şəraitdə bu vəsaitlərə nəzarətin də səmərəli təşkil olunmasını vacib şərt kimi qarşıya qoyur. Bu məqsədlə büdcənin icrasına nəzarət və hesabatların onlayn qaydada təqdim olunması maliyyə sisteminin möhkəmlənməsinə mühüm təsir göstərən amillərdən biri sayılır.

E.CƏFƏRLİ